

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 224 (21.634)

*26 noyabr 2016-cı il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Sabunçu rayonunun Ramana qəsəbəsində qəzalı vəziyyətdə olan binanın sakinləri üçün tikilmiş yeni binanın noyabrın 25-də açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Ramana qəsəbəsi, Bünyadzadə küçəsi, 23 ünvanında yerləşən yaşayış binası 1901-ci ildə neftçilər üçün inşa edilmiş və uzun illər istismar olunduğundan qəzalı vəziyyətə düşmüşdü.

Azərbaycan Respublikası Prezidentinin göstərişinə əsasən, Nazirlər Kabineti "Bakı şəhəri Sabunçu rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər barədə" 2015-ci il 8 oktyabr tarixli Qərar qəbul edib. Həmin qərara əsasən, qeyd olunan qəzalı binada yaşayan 34 ailə – 147 sakin kirayə haqları ödənilərək binadan köçürülüb. 2015-ci il dekabrın 24-də onun yerində "Pilot layihə" formatında 10 mərtəbəli, iki və üç otaqlı 80 mənzilli yeni yaşayış binasının inşasına başlanılıb.

Dövlətimizin başçısı binadakı mənzillərdə yaradılmış şəraitlə tanış olub.

Bildirilib ki, yeni binanın tikintisi noyabrın 9-da – Dövlət Bayrağı Günündə başa çatdırılıb. Ümumi sahəsi 5768 kvadratmetr olan binadan 34 ailəyə tam təmirli, bütün şəraiti olan, müvafiq avadanlıqlarla təchiz edilmiş və sahələri əvvəlkindən 35-45 faizdən çox olan mənzillər verilib.

Yeni binanın sakinləri ilə görüşən Prezident İlham Əliyev çıxış edib.

Sonda xatirə şəkli çəkdirilib.



## Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin ilk iclası keçirilmişdir

Noyabrın 25-də Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin ilk iclası keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Bu gün biz Naxçıvan şəhərinin 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə bağlı toplaşmışıq. Artıq 15 ildir ki, "İslam mədəniyyətinin paytaxtı" anlayışı gündəlikdədir. Bununla bağlı ilk rəsmi sənəd İslam Ölkələrinin Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) təklifi ilə İslam Konfransı Təşkilatına üzv olan ölkələrin mədəniyyət nazirlərinin 2001-ci ildə keçirilmiş üçüncü konfransında qəbul edilmişdir. İSESKO-nun qərarı ilə 2007-ci ilin noyabrında keçirilmiş beşinci konfransda Azərbaycanın paytaxtı Bakı şəhəri 2009-cu il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmuşdur. 2009-cu ilin oktyabrında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin Bakı şəhərində keçirilən altıncı konfransında isə Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qərar qəbul edilmişdir. Bu qərar əsaslıdır. Ona görə ki, Azərbaycanın 5 min illik tarixə malik qədim şəhəri olan Naxçıvan İslam mədəniyyəti nümunələri ilə zəngindir və bəşər sivilizasiyasına dəyərli töhfələr vermişdir. Qeyd olunanlar, eləcə də 2009-cu ildə Bakı şəhərinin İslam mədəniyyəti paytaxtı elan olunması ilə bağlı qazanılan təcrübə 2018-ci ildə Naxçıvan şəhərində tədbirlərin yüksək səviyyədə keçiriləcəyinə əminlik yaradır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 iyun tarixli Sərəncamı ilə Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradıldığını diqqətə çatdırmış, göstərilən etimada görə bir daha Təşkilat Komitəsi adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıq etmişdir.

Qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamında Təş-



kilat Komitəsi tərəfindən Tədbirlər Planının hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi tapşırılmışdır. Bu gün Təşkilat Komitəsi üzvlərinin təklifləri nəzərə alınmaqla hazırlanmış Tədbirlər Planının layihəsi müzakirəyə təqdim olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov qarşıda duran vəzifələrdən danışaraq demişdir: Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar bu gündən hazırlıq işlərinə başlayırıq. İlk olaraq "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan-2018" loqotipi hazırlanacaq və rəsmi internet səhifəsi yaradılacaqdır. Naxçıvanın İslam mədəniyyətinin paytaxtı olmasını əks etdirən video çarxlar, suvenirlər, zərf və poçt markaları da hazırlanmalıdır. 2018-ci ildə muxtar respublikada keçiriləcək tədbirlərdə İslam ölkələrinin nümayəndələri də iştirak edəcəkdir. Tədbir iştirakçılarının, eləcə də onları müşayiət edən şəxslərin Azərbaycan Respublikasına gəlişi ilə bağlı zəruri məsələlər həll edilməlidir. Təşkilat Komitəsinin bu sahələr üzrə aid üzvləri bununla bağlı lazımi tədbirləri Tədbirlər Planına uyğun olaraq nəzarətdə saxlayacaqlar. Muxtar respublika türk-islam mədəniyyət nümunələri, dini abidələrlə zəngindir. Bu abidələrin tanıdılması ilə bağlı onlardan bəzilərinin İSESKO-nun siyahısına salınması istiqamətində iş aparmalıyıq. Nəzərdə tuturuq ki, muxtar respublikanın dini abidələri, məscid və ziyarətgahları haqqında kitablar nəşr olunsun. Bununla bərabər mili-mənəvi dəyərlərimizə həsr olunmuş sənədli və televiziya filmlərinin hazırlanması da vacib məsələdir. Eyni zamanda Təşkilat Komitəsi elmi-kütləvi tədbirlərin də təşkilini diqqətdə saxlayacaqdır. Naxçıvanda "İslam filmləri həftəsi"nin keçirilməsi, islam ölkələrinin folklor və rəqs qruplarının iştirakı ilə festivalların, idmançılar arasında isə müxtəlif idman yarışlarının keçirilməsi nəzərdə tutulur.

Sonra Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı elan edilməsindən ötən dövrdə görülmüş işlər və 2016-2018-ci illərdə bu sahədə həyata keçiriləcək tədbirlər müəyyənləşdirilmiş, Təşkilat Komitəsi üzvlərinin təklifləri nəzərə alınmaqla hazırlanmış Tədbirlər Planının layihəsi müzakirə olunmuşdur.

Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsi sədrinin müavini Əbülfəs Qarayev çıxış edərək demişdir ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması və bu sahədə görülən hazırlıq işləri İslam Ölkələrinin Elm, Təhsil və Mədəniyyət Təşkilatı (İSESKO) tərəfindən yüksək qiymətləndirilir. Təşkilat Komitəsinin ilk iclasının Naxçıvanda keçirilməsi bu baxımdan mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası tarixi və dini-mədəni abidələrlə zəngindir. Muxtar respublikada islami dəyərlərin yaşadılması sahəsində ardıcıl tədbirlər görülür. Təşkilat Komitəsinin üzvləri Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə bağlı müəyyənləşdirilən vəzifələrin icrasını bundan sonra da diqqətdə saxlayacaqlar.

Müzakirələr zamanı Təşkilat Komitəsinin üzvlərindən Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü İsa Həbibbəyli, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü Urxan Ələkbərov, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü Vasim Məmmədəliyev və Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü Səyyad Salahlı çıxış edərək təkliflər vermişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Təşkilat Komitəsi üzvlərinin müzakirə zamanı verdikləri təkliflərin də nəzərə alınaraq Tədbirlər Planının yenidən işlənməsini tapşırmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Vergi orqanlarında vakant vəzifələrin tutulması üçün test imtahanı olub

***Vergi orqanlarında vakant vəzifələrin tutulması üçün test imtahanı keçirilib.***

Vakant vəzifələrin tutulması üçün bu il oktyabr ayının 3-də elan edilmiş müsabiqəyə 31 vakant vəzifə çıxarılıb, həmin vəzifələrin tutulması üçün 108 namizəd sənəd təqdim edib. Bu barədə məlumat qəzetimizə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidmətindən daxil olub.

Məlumatda bildirilib ki, komissiyanın test mərkəzində noyabrın 24-25-də keçirilən və 99 namizədin iştirak etdiyi müsabiqənin test imtahanları mərhələsində namizədlərə ixtisas üzrə 95, məntiqi təfəkkürün yoxlanılması üzrə 5 sual olmaqla, 100 sual təqdim olunub. İmtahanda iştirak edənlərdən 13 nəfəri keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb. Sualları cavablandırmaq üçün namizədlərə 2 saat 30 dəqiqə vaxt ayrılıb. İmtahanda şəffaflığın



tam təmin edilməsi məqsədilə videoçəkiliş aparılıb. Test imtahanı bitdikdən dərhal sonra namizədlərə cavab kartı və test imtahanının nəticəsinə dair arayış təqdim edilib.

Test imtahanının nəticələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet səhifəsində *(www.dqmk.nmr.az)* yerləşdirilib.

**Xəbərlər şöbəsi**

# Naxçıvan inkişaf və tərəqqi ünvanına çevrilib

## Muxtar respublika müstəqillik illərində böyük inkişaf yolu keçib

***Bu il müstəqilliyinin 25 illiyini qürurla qeyd edən Azərbaycan Respublikası qısa zaman ərzində böyük uğurlara imza atıb. Bu inkişaf və tərəqqi Azərbaycanın bütün bölgələrində, o cümlədən qədim Naxçıvan torpağında da aydın şəkildə müşahidə olunur. Müstəqil ölkəmizin əldə etdiyi ən böyük nailiyyətlərdən biri də 25 ildir ki, blokada vəziyyətində yaşayan muxtar respublikanın hərtərəfli inkişafına nail olunmasıdır. Bu gün Naxçıvan Azərbaycan Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə istər sosial-siyasi, istərsə də iqtisadi və mədəni sahələrdə sürətlə inkişaf edir, çiçəklənir. Şərqin qapısı adlandırılan qədim diyar beynəlxalq tədbirlərin keçirildiyi önəmli mədəniyyət mərkəzlərindən birinə çevrilib.***



Tarixin bir çox dövrlərində Azərbaycanın coğrafi cəhətdən mərkəzində yerləşən Naxçıvan XX əsrin 90-cı illərinin əvvəlində sanki taleyin ümidinə buraxılmış bir adanı xatırladırdı. Məkrli düşmənlərin Zəngəzuru ələ keçirməsindən sonra Naxçıvan ərazi cəhətdən Azərbaycandan ayrı düşmüşdü. Lakin Naxçıvanın igid və qəhrəman övladları dahilər yurdunu heç vaxt Azərbaycandan ayrı təsəvvür etməyiblər. Buna görə də XX əsrin əvvəllərində olduğu kimi, 80-ci illərdə də Naxçıvana yiyələnmək istəyən erməni daşnaklarının arzuları gözlərində qaldı. Həmin dövrdə Naxçıvana gələn kommunikasiya xətlərinin sıradan çıxarılmasına, ana torpaqla bütün əlaqələrin kəsilərək blokada vəziyyətinə salınmasına baxmayaraq, qədim diyar düşmənə təslim olmadı.

Naxçıvanın çox ağır günlərində doğma yurdun köməyinə gələn Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrik və düşünülmüş siyasəti, insanlarımızın fədakarlığı sayəsində Naxçıvan xilas edildi, onun düşmən əlinə keçməsinə imkan verilmədi. Ulu öndərin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi bu qədim diyarı bəlalardan xilas etdi. Dahi şəxsiyyətin rəhbərliyi ilə milli dövlətçiliyimizin bərpası istiqamətində uğurlu addımlar atıldı, bir sıra tarixi qərarlar qəbul edildi, ordu quruculuğu prosesinə başlanıldı, muxtar respublikanın təhlükəsizliyi təmin olundu.

Həmin dövrdə Ermənistanla sərhədin cəmi 3-4 kilometrliyində Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikasını əlaqələndirən Sədərək-Dilucu körpüsünün salınması siyasi, hərbi, diplomatik və iqtisadi baxımdan böyük hadisə idi. Hələ 1921-ci ildə imzalanmış Qars müqaviləsinin yenidən beynəlxalq siyasi mühitin gündəminə gətirilməsi bölgədə sülhün möhkəmləndirilməsinə özünün sanballı töhfəsini verdi.

Ulu öndər hələ XX əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan Muxtar Respublikasında cəmiyyət həyatının bütün sahələrini əhatə edən inkişafın möhkəm əsaslarını yaradıb. Müstəqil Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında iqtisadi islahatlar aparılıb, keçmiş planlı təsərrüfat sisteminin əvəzinə bazar iqtisadiyyatına əsaslanan özəl sektorun yaradılmasına başlanılıb. Sonralar ümumən Azərbaycanın hər yerində, o cümlədən Naxçıvanda baş verən böyük yeniləşmə və inkişaf prosesləri həmin zəmin üzərində aparılıb.

Ötən 25 il ərzində müstəqilliyin verdiyi imkanlar hesabına muxtar respublikada iqtisadiyyat şaxələndirilib, səmərəli məşğulluq təmin edilib, yeni istehsal və xidmət sahələri yaradılıb, əhalinin rifahı yaxşılaşdırılıb. Ümumi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalının həcmi müstəqilliyimizin ilk illərinə nisbətən 56 dəfə artaraq 2015-ci ildə 2 milyard 467 milyon manatı ötüb. Hər bir nəfərə düşən ümumi daxili məhsul istehsalının həcmi isə 42 dəfə artaraq 5581 manata çatıb. 2016-cı ilin yanvar-oktyabr aylarında isə ümumi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalının həcmi 1 milyard 999 milyon 800 min manatdan çox olub. Bu da bir il öncəki müvafiq göstəricidən 0,7 faiz artıqdır. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi ötən ilin müvafiq dövrünə nisbətən 2,8 faiz artaraq 4470 manatı ötüb.

Digər sahələrdə də çox böyük inkişaf tendensiyaları müşahidə olunub. Müstəqillik illərində muxtar respublikada sənaye istehsalının həcmi 100 dəfə, əsas kapitala yönəldilən investisiyalar 312 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 10 dəfə, nəqliyyat sektorunda yük daşınması 25 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 112 dəfə, pərakəndə əmtəə dövriyyəsi 35 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 51 dəfə, ixracın həcmi 214 dəfə, əhalinin gəlirləri 57 dəfə, hər bir nəfərə düşən gəlirlər 43 dəfə, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 25 dəfə artıb. 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə isə 2016-cı ilin yanvar-oktyabr aylarında sənaye məhsulunun həcmi 2,2 faiz, əsas kapitala yönəldilən investisiyalar 5,4 faiz, kənd təsərrüfatının ümumi məhsulu 6,4 faiz, informasiya və rabitə xidmətlərinin həcmi 3,9 faiz, o cümlədən mobil rabitə xidməti 2 faiz, əhalinin gəlirləri 1,2 faiz çoxalıb.

Aparılmış məqsədyönlü tədbirlər nəticəsində, ümumilikdə, ötən dövrdə 386 sənaye müəssisəsi yaradılıb. Əgər müstəqilliyimizin ilk illərində muxtar respublikada cəmi 56 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, hazırda bu göstərici 8 dəfə artaraq 442-yə çatıb.

Özünün hərtərəfli inkişaf dövrünü yaşayan Naxçıvanın beşminillik tarixində ilk dəfədir ki, onun hətta ən ucqar dağ kəndləri də müasir şəhər görkəmi alıb, abadlaşıb, gözəl yaşayış məskəninə çevrilib. Müasir Naxçıvan bu gün yenitipli Avrasiya şəhəri kimi diqqətləri özünə cəlb edir. Muxtar respublikada yaşayış məntəqələrinin abadlaşdırılması, əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində görülən tədbirlər nəticəsində ötən dövrdə doğma diyarımızda 4 qəsəbə və 133 kənd mərkəzi istifadəyə verilib.

Bu gün Naxçıvan Muxtar Respublikasında ölkənin intellektual gələcəyinə xidmət edən təhsilin inkişafı da diqqət mərkəzində saxlanılır. Hər il yeni məktəb binaları tikilir, təhsil ocaqlarında müasir tədris avadanlıqları quraşdırılır, məktəblilərin istifadəsinə kompüter dəstləri və elektron lövhələr verilir. Müstəqillik illərində Naxçıvanda təhsil müəssisələri üçün yeni binalar tikilərək, mövcud binalar yenidən qurularaq istifadəyə verilib, onların maddi-texniki bazası möhkəmləndirilib. Muxtar respublikada yeni məktəb binalarının istifadəyə verilməsi, onların texniki və kadr təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi sahəsində ardıcıl iş aparılır. 1995-ci ildən ötən dövr ərzində Naxçıvanda 185 ümumtəhsil məktəbi, eləcə də 19 məktəbəqədər təhsil müəssisəsi, 26 uşaq musiqi və 3 orta ixtisas təhsili müəssisəsi tikilib və ya yenidən qurulub. Təhsildəki keyfiyyət dəyişiklikləri ali məktəblərə qəbulda yüksək bal toplayan abituriyentlərin sayında da özünü göstərir. Əgər 1996-cı ildə 500-700 arası bal toplayan abituriyentlərin sayı 5 nəfər olmuşdusa, 2016-cı ildə onların sayı 338 nəfərə çatıb.

Bir məkanın təhlükəsizliyinin təmin olunması yalnız ordu yaratmaq və sərhədləri qorumaqla deyil, həm də ərzaq, enerji və telekommunikasiya sisteminin təhlükəsizliyinin təmin olunması ilə bağlıdır. Bu gün Naxçıvanda bütün bu tədbirlər tam həyata keçirilib. Belə ki, blokada şəraitinin yaratdığı çətinliklər səbəbindən energetika sahəsində ciddi problemlərlə üz-üzə qalan muxtar respublikaya uzunmüddətli fasilədən sonra 2005-ci il dekabrın 20-də təbii qaz nəqli bərpa olunub. İyirmi il bundan əvvəl muxtar respublikada elektrik enerjisi istehsal edən cəmi bir müəssisə fəaliyyət göstərirdisə, ötən müddət ərzində bu sahədə aparılan məqsədyönlü tədbirlər nəticəsində enerji istehsalı müəssisələrinin sayı 8-ə, ümumi gücü 237,4 meqavata çatdırılıb. Görülən işlərin nəticəsidir ki, Naxçıvanda alternativ və bərpa olunan enerji ümumi istehsalın 61,1 faizinə bərabərdir.

Muxtar respublikada mövcud elektrik stansiyalarının, yarımstansiya və elektrik verilişi avadanlıqlarının təmiri ilə yanaşı, yeni elektrik stansiyalarının tikilib istifadəyə verilməsi sahəsində də mühüm işlər görülür. Hazırda Araz çayı üzərində derivasiyatipli 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. Culfa rayonunda isə gələcəkdə külək elektrik stansiyasının tikintisinin texniki-iqtisadi əsaslandırılması üçün ölçmə işləri aparılır. Həmçinin gücü 14 meqavat olan Tivi Su Elektrik Stansiyasının və 3,5 meqavat olan Qazançı Su Elektrik Stansiyasının tikintisinin texniki-iqtisadi əsaslandırılması hazırlanır.

Sevindirici haldır ki, muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasını, kənd təsərrüfatının bütün sahələrinin inkişafı məsələsini ön plana çıxarıb. Kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində aparılmış məqsədyönlü tədbirlər nəticəsində 2015-ci ildə muxtar respublikada 106 min 282 ton taxıl, 82 min 16 ton tərəvəz, 45 min 43 ton kartof, 38 min ton bostan məhsulları, 66 min 465 ton meyvə və giləmeyvə istehsal olunub. Bu da 1995-ci ildəki göstəriciləri müvafiq olaraq 4,5 dəfə, 63,1 dəfə, 112,5 dəfə, 95 dəfə və 3,5 dəfə üstələyib. 2016-cı ilin məhsulu üçün muxtar respublikada 61 min 526 hektar sahədə əkin aparılıb ki, bu da bir il əvvəlki göstəricidən 112 hektar çoxdur. Ötən dövr ərzində muxtar respublikada taxılçılıq üstün istiqamət kimi saxlanılıb və 2016-cı ilin məhsulu üçün 31 min 579 hektar sahədə taxıl əkilib ki, bunun da 26 min 792 hektarı payızlıq, 4 min 787 hektarı isə yazlıq taxıldır. Taxıl zəmilərinin 26 min 795 hektarında buğda, 4 min 784 hektarında isə arpa əkilib. Cari ildə taxıl zəmilərindən 94 min 117 ton məhsul toplanıb. Təbii ki, bütün bunlar ərzaq təhlükəsizliyinin təmin olunması baxımından böyük əhəmiyyətə malikdir.

Vaxtilə düşmənlərimiz tərəfindən telekommunikasiya xətləri kəsildiyi üçün dünyadan təcrid edilən Naxçıvanda bu gün artıq dördüncü nəsil mobil rabitə şəbəkəsi istifadəyə verilib. Bu il oktyabrın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada dördüncü nəsil mobil rabitə şəbəkəsinin istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını və sakinləri təbrik edərkən, görülən bütün bu işlərin ulu öndərimizin yolunun uğurla davam etdirilməsi nəticəsində həyata keçirildiyini vurğulayaraq deyib: ***"Oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünü qeyd etdi. Ötən dövrdə Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası inkişaf etmiş, dövlət müstəqilliyimiz möhkəmlənmiş, ölkəmiz dünya dövlətləri içərisində öz layiqli yerini tutmuşdur. Bütün bunlar 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə siyasi hakimiyyətə qayıdışının və bu gün ölkə Prezidenti tərəfindən ulu öndərin yolunun uğurla davam etdirilməsinin nəticəsidir. Bu gün ölkəmizdə bütün sahələr inkişaf etdirilir, yeni texnologiyalar tətbiq olunur, müasir cəmiyyət qurulur. Yeni texnologiyaların tətbiqi isə dünyaya inteqrasiya deməkdir. Birləşmiş Millətlər Təşkilatının son hesabatında qeyd olunur ki, dünya əhalisinin 60 faizinin internetə çıxış imkanı məhduddur. Lakin bu gün muxtar respublikanın bütün ərazisi internetlə təmin olunmuşdur".***

*Ötən 25 ildə Naxçıvan çox böyük inkişaf yolu keçib. Bu illərdə iqtisadi və nəqliyyat əlaqələrinin məhdud olduğu şəraitdə yüksək iqtisadi fəallığa nail olunmasını, istehsal potensialının hərəkətə gətirilməsini, davamlı quruculuq işlərini, sosial problemlərin səmərəli həllini və ən əsası əhalinin güzəranının daha da yaxşılaşdırılmasını, demək olar ki, hər bir naxçıvanlının qayğısını çəkmək bacarığını yalnız sadə formada tərəqqi və inkişaf yolu adlandırmaq doğru olmazdı. Bu yol Vətən və dövlət sevgisindən doğan, gərgin əmək və misilsiz əzmkarlığın təcəssümü olan əsl qəhrəmanlıq salnaməsi kimi yaddaşlara həkk olunub. Bütün bunlar, hər şeydən əvvəl, görkəmli dövlət xadimi Heydər Əliyev siyasi kursunun təntənəsidir.*

✍ **Rauf ƏLİYEV**

## Dəyirmi masada Naxçıvanın tanıdılması ilə bağlı görülən işlər müzakirə edilib



***Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyində "Muxtar respublikanı necə tanıdırıq" mövzusunda dəyirmi masa keçirilib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirliklərinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin Turizm ixtisası üzrə təhsil alan tələbələri və muxtar respublikanın fəal gəncləri iştirak ediblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev, Gənclər və İdman Nazirliyinin şöbə müdiri Nicat Babayev, Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Əkbər Novruzov, Təhsil Nazirliyinin sektor müdiri Rasim Rüstəmov, Naxçıvan Turizm İnformasiya Mərkəzinin direktoru Gülnarə Sadiqova çıxış ediblər.

Çıxışlarda bildirilib ki, bu il martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə gənclərin tarixi-mədəni irsimizə hörmət ruhunda böyüdülməsi əsas vəzifələrdən biri kimi müəyyənləşdirilib. Gənclər və İdman Nazirliyi Mədəniyyət və Turizm Nazirliyi və Gənclər Fondu ilə birlikdə "Naxçıvanı tanıyaq" devizi altında gənclərin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinə, Duzdağ Fizioterapiya Mərkəzinə, Şahbuz Dövlət Təbiət Qoruğuna və Batabat Astrofizika Rəsədxanasına, Əlincəqalaya, Ordubad rayonu ərazisindəki muzeylərə və tarixi abidələrə ekskursiyalarını təşkil edib. Bundan başqa, Təhsil Nazirliyi tərəfindən sınaq imtahanlarında yüksək nəticə göstərmiş 315 şagirdin, 45 sağlamlıq imkanları məhdud və 45 aztəminatlı ailələrin uşaqlarının Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunub.

Sosial şəbəkələrdə Naxçıvanın turizm potensialının təbliğ edilməsinin əhəmiyyətinə toxunularaq bildirilib ki, elektron resurs istifadəçiləri hazırda dünyada baş verən prosesləri, əsasən, virtual məkanın imkanlarından yararlanmaqla öyrənirlər. Eynilə də digər əcnəbi ölkə vətəndaşlarının ölkəmizin və muxtar respublikamızın mövcud həyatı haqqında müəyyən məlumatlara malik olması belə resursların vasitəçiliyi ilə təmin olunur. Bu gün muxtar respublikamızla bağlı həqiqətlərin sosial şəbəkələrdə təbliği aparılır, regionun müasir həyatı haqqında məlumatlar öz əksini tapır. Lakin bu sahədə görəcəyimiz işlər hələ çoxdur.

Qeyd olunub ki, muxtar respublikanın turizm potensialını təbliğ edən elektron resursların hazırlanması və internetdə yerləşdirilməsi məqsədilə 94 dövlət orqanının saytında Naxçıvan Turizm İnformasiya Mərkəzinin saytının banneri yerləşdirilib. Mərkəzin internet səhifəsi 3 dildə – Azərbaycan, rus və ingilis dillərində yenidən işlənib, muxtar respublikanın turizm imkanlarını əks etdirən materiallarla zənginləşdirilib.

Dəyirmi masada Naxçıvanın turizm potensialının təbliği ilə bağlı diskussiyalar aparılıb.

**Xəbərlər şöbəsi**

# İnteraktiv açıq dərsi muxtar respublikanın 187 ümumtəhsil məktəbindən izləyiblər



Naxçıvan şəhər 12 nömrəli tam orta məktəb

***Gənc nəslin müasir bilik və bacarıqlara yiyələnməsində informasiya və kommunikasiya texnologiyalarının təhsildə tətbiqi mühüm amildir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı muxtar respublikada elektron təhsilin tətbiqinin genişləndirilməsinə, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılmasına, tədrisin əyaniliyinin və səmərəliliyinin daha da artırılmasına təkan verib.***

2014-cü il iyulun 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində təhsil müəssisələrində tədrisin vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin distant təhsilin muxtar respublikada tətbiqi üçün müvafiq qurumlara müxtəlif tapşırıqlar verməsi, tapşırıqların uğurlu icrası bu sahədə böyük nailiyyətlər qazanılmasına imkan yaradıb. Ötən müddətdə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqənin təşkili məqsədilə mərkəzi server qurulub, ümumtəhsil məktəbləri və muzeylər bu sistemə qoşulub. Həmin sistemdən videokonfransların, müəllim-şagird dialoqunun, mühazirələrin onlayn rejimdə təşkilində, seminarların keçirilməsində istifadə olunur.

Bu sahədə həyata keçirilən tədbirlərin davamı kimi Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən elektron təhsilin təşkili sahəsində yeni bir layihəyə start verilib. Belə ki, "İnteraktiv açıq dərs" layihəsi ümumtəhsil məktəblərində keçilən açıq dərslərə digər məktəblərin qoşulması məqsədi daşıyır. Layihəyə uyğun olaraq ilk dərs noyabrın 25-də Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbdə təşkil olunub. Azərbaycan Respublikasının Əməkdar müəllimi Azadə Məmmədovanın apardığı açıq dərsi muxtar respublikanın 187 ümumtəhsil məktəbinin ibtidai sinif şagirdləri izləyiblər.

Qeyd edək ki, layihə çərçivəsində bundan sonra ayda iki dəfə müxtəlif fənlər üzrə "İnteraktiv açıq dərs"lərin keçirilməsi nəzərdə tutulur.

✍ **Səbuhi HƏSƏNOV**



Şərur rayon Arbatan kənd tam orta məktəbi



Şahbuz rayon Kükü kənd tam orta məktəbi

# Arıçılıqla bağlı seminar keçirilib



***Naxçıvan Dövlət Universitetində "Arıçılıq məhsullarının istehsalı metodları və arıçılıqda qış qayğıları" mövzusunda seminar keçirilib.***

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbiri giriş sözü ilə açaraq heyvandarlığın ən perspektivli sahəsi kimi arıçılığın inkişaf etdirilməsi ilə bağlı mühüm qanun və sərəncamların imzalanması, universitetdə arıçılıqla bağlı beynəlxalq konfransların, elmi nəşrlərin həyata keçirilməsi, müvafiq ixtisasın tədrisi ilə bağlı laborator şəraitin yaradılması, muxtar respublikada damazlıq və ana arı yetişdirilməsi, zoobaytar tədbirlərin gücləndirilməsi ilə bağlı məlumat verib.

Universitetin Tibb fakültəsinin dekanı, dosent Elsevər Əsədov "Müasir metodlarla çiçək tozcuğu istehsalı texnologiyaları" adlı məruzəsində çiçək tozcuğunun tərkibi, əhəmiyyəti, istifadə sahələri barədə məlumat verərək bildirib ki, çiçək tozcuğu (polen) kənd təsərrüfatı zərərvericiləri ilə mübarizə məqsədilə dərmanlama aparılmamış ərazidə yerləşdirilməli, sağlam arıların bəsləndiyi, gigiyenik və sanitariya cəhətdən yararlı arıxanalardan toplanmalı, kölgəli, açıq havada nəmliyi 2,5-7 faiz olanadək qurudulmalıdır. Qurudulmuş tozcuq yad maddələrdən təmizlənərək hava keçirməyən şüşə qablarda 1-2⁰ C-də saxlanılmalıdır.

"Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin sədri Vaqif Məmmədov "Arıxanalarda qış qayğıları" məruzəsində bildirib ki, qapalı qışlama zamanı arıxanaya girişçıxış minimum olmalı, pətəklər yerdən 25-30 santimetr yüksəklikdə yerləşdirilməli, uçuş bazası pəncərə toru ilə tutulmalı, havalandırma qurğuları açıq saxlanmalıdır. Qışlama yerində qızdırıcıdan istifadə edilməməli, havanın temperaturu sabit saxlanmalı, $-2^0$ C + $4^0$ C-yə qədər olmalıdır. Açıq havada qışlama zamanı günəşli, küləksiz yer seçilməli, arıxananın ətrafı hasarlanmalıdır. Pətəklərin uçuş bazası məhdudlaşdırılmalı, arıların qış azuqəsi üçün bal saxlanmalıdır.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Əyyub Abdullayev Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı ilə bağlı məruzəsində vurğulayıb ki, "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" bu sahənin inkişafında, yüksək məhsuldarlığa nail olunmasında əhəmiyyətli nailiyyətlər əldə edilməsinə təkan verəcək. Qeyd olunub ki, hazırda regionda arıçılıqla 4 mindən artıq sahibkar məşğul olur. 2016-cı ilin yanvar ayına olan məlumata görə, muxtar respublikada 70396 arı ailəsi vardır. 2015-ci ildə 1396 ton bal istehsal olunub ki, bu da əvvəlki illə müqayisədə çoxdur. Məruzəçi arıçılıqda müasir texnologiyanın tətbiqi, bu sahədə maddi-texniki bazanın təkmilləşdirilməsi, arıçılıq məhsullarının istehsalı, tədarükü, emalı və satışında qazanılan uğurlardan da danışıb.

***Elm, təhsil sahəsində əhəmiyyətli nəticələrə imza atan Naxçıvan Dövlət Universitetində dünya təhsil sisteminə inteqrasiya məqsədilə beynəlxalq əlaqələrin inkişafına xüsusi diqqət yetirilir.***

# Universitet əməkdaşları beynəlxalq *"Erasmus +"* layihəsi çərçivəsində keçirilən seminarda iştirak ediblər

Universitetin uğurla təmsil olunduğu beynəlxalq layihələrdən biri də Şərq Tərəfdaşlığı ölkələri universitetlərinin tələbə və əməkdaşlarının Avropada təhsil almaq və ya təlim keçmək imkanlarını daha da genişləndirməyə xidmət edən "Erasmus+" layihəsidir. 150 tərəfdaş ölkəni birləşdirən bu layihəyə beynəlxalq əməkdaşlıq üçün 3 milyard avro vəsait ayrılıb. 2014-2020-ci illəri əhatə edəcək "Erasmus +" layihəsi qabiliyyətlərin inkişaf etdirilməsi, kredit və dərəcə mobilliyi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, Jean Monnet fəaliyyət proqramı, kadr potensialının gücləndirilməsi kimi əsas fəaliyyət istiqamətlərini özündə cəmləşdirir. Layihə çərçivəsində Naxçıvan Dövlət Universiteti ilə Çexiya Respublikasının Olomouç şəhərinin Karitas Sosial İş Kolleci arasında əməkdaşlıq uğurla davam etdirilir. 2016-cı ilin sentyabr ayında kollecin iki nəfər müəllimi – Tereza Malokova və Lenka Gaaman Naxçıvan Dövlət Universitetində olub, müəllim və tələbələrlə görüşüblər.

Naxçıvan Dövlət Universitetinin əməkdaşları, tərbiyə işləri üzrə prorektor, dosent Şamxal Məmmədov, İngilis dili və metodika kafedrasının müdiri Mirhəsən Eminov isə bu günlərdə "Erasmus+" beynəlxalq mobillik layihəsi çərçivəsində Çexiya Respublikasının Olomouç şəhərində keçirilən humanitar seminarda iştirak ediblər.

Azərbaycan, Hindistan, Moldova, Şri-Lanka, Meksika kimi tərəfdaş ölkələrin ali təhsil müəssisələrinin alimlərinin iştirak etdiyi təlim-seminarın əsas məqsədi tərəfdaş ölkələr arasında sosial və humanitar işlərlə bağlı bilik və təcrübə mübadiləsi idi. Karitas Sosial İş Kollecində təşkil edilən ongünlük təlim-seminarda ilk olaraq kollecin rəhbərliyi və heyəti ilə görüş keçirilib, qonaqlara Çexiya Respublikasının ali təhsil sistemi, təhsilin pillələri və kollec haqqında məlumat verilib. Karitas Sosial İş Kollecinin layihə üzrə yerli koordinatoru layihənin məqsəd və vəzifələrindən bəhs edərək bildirib ki, " Erasmus+" beynəlxalq mobillik layihəsi Azərbaycan, Hindistan, Şri-Lanka, Meksika, Moldova və Çexiya Respublikası kimi tərəfdaş ölkələrin ali təhsil müəssisələri arasında sosial və humanitar məsələlər üzrə əməkdaşlığın uğurla davam etdirilməsini, bilik və təcrübələrin bölüşdürülməsini, tələbə və müəllim mübadiləsini nəzərdə tutur. Təlim-seminarın ilk günündən etibarən bütün tərəfdaş ölkələrin nümayəndələri öz təhsil sistemləri, sosial-humanitar məsələlərlə bağlı, o cümlədən keçmiş məhbuslar, ehtiyacı olan insanlar və xəstələr evi barədə geniş fikir mübadiləsi apardılar. Tədbir iştirakçıları Olomouç şəhərinin bələdiyyə başçısı ilə də görüşüblər.

Təlim-seminarda Naxçıvan Dövlət Universitetinin tərbiyə işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov "Dondurulmuş münaqişələrlə bağlı humanitar və sosial işçilər üçün çağırış: Dağlıq Qarabağ kontekstində" mövzusunda məruzə edib, verilən suallar cavablandırıb. Şamxal Məmmədov dünyadakı münaqişələrin tarixi kökləri, ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, onların deportasiya, soyqırımı, terror siyasəti, torpaqlarımızın 20 faizinin işğalı, qaçqın və məcburi köçkün problemi, eləcə də məcburi köçkünlərə dövlət tərəfindən göstərilən sosial-humanitar dəstək və qayğı haqqında geniş məlumat verib. Tarixi faktlar əsasında, müxtəlif elmi mənbələrə istinad edilərək hazırlanan məruzə böyük maraqla qarşılanıb.

İngilis dili və metodika kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Mirhəsən Eminov video və slaydlardan istifadə edərək Naxçıvan Muxtar Respublikası və Naxçıvan Dövlət Universiteti haqqında ətraflı məlumat verib.

**Mehriban SULTAN**

# Humanitar tibbi aksiyalar əhalinin sağlamlığının qorunmasında mühüm vasitədir

*Muxtar respublikada əhaliyə göstərilən səhiyyə xidmətinin səviyyəsi ilbəil yüksəldilir. Səhiyyə infrastrukturunun yenilənməsi əhalinin sağlamlığının qorunması işində əsaslı dönüşə səbəb olub. Müasir tibb ocaqlarının tikilib istifadəyə verilməsi, insanların sağlamlığının yaxşılaşdırılması, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi diqqət mərkəzində saxlanılır. Bununla yanaşı, yüksəkixtisaslı həkim briqadalarının mütəmadi olaraq muxtar respublikaya gəlməsi də aztəminatlı ailələrdən olan xəstələrin müayinə və müalicəsinə hərtərəfli şərait yaradır.*

Bu sahədə yaranmış ənənə cari ilin ötən dövründə də uğurla davam etdirilib. Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasının 21 nəfərdən ibarət ayrı-ayrı ixtisaslar üzrə həkim briqadası yanvar ayında Şərur rayonunda 2 min 504 nəfəri tibbi müayinədən keçirib, 75 nəfərdə əməliyyat aparıb. Klinik Xəstəxananın 23 nəfərdən ibarət həkim heyəti may ayında Ordubad Rayon Mərkəzi Xəstəxanasında əhalinin kütləvi müayinə və müalicəsinə nail olaraq 3 min 587 nəfəri müayinə edib, 86 nəfərdə cərrahi əməliyyat aparıb.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Mərkəzi Neftçilər Xəstəxanası ilə qarşılıqlı əməkdaşlığı artıq ənənə halını alıb. Xəstəxananın Ürək və damar xəstəlikləri şöbəsinin müdiri, Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyasının sədri, tibb elmləri doktoru Rəşad Mahmudovun rəhbərliyi ilə Naxçıvan Diaqnostika- Müalicə Mərkəzində təşkil olunan humanitar tibbi aksiyalar yüzlərlə xəstənin müayinə və müalicəsində mühüm rol oynayıb, eyni zamanda yerli həkimlərin açıq ürək əməliyyatlarında iştirakı onların bu sahədə mütəxəssis kimi yetişməsinə, belə cərrahi əməliyyatları müstəqil şəkildə icra etməsinə imkan verib. İlin xronikasına nəzər salaq: Mərkəzi Neftçilər Xəstəxanası Ürək və damar xəstəlikləri şöbəsinin yüksəkixtisaslı heyəti bu ilin ötən on ayında altı dəfə Naxçıvanda olub, Diaqnostika-Müalicə Mərkəzinin Kardiocərrahiyyə şöbəsi ilə birgə 67 nəfərdə açıq ürək əməliyyatı aparıb, humanitar aksiya çərçivəsində 250 nəfəri tibbi müayinədən keçirib.

Fevral ayında keçirilən aksiyada Azərbaycan Milli Oftalmologiya Mərkəzinin oftalmoloqları tərəfindən Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanasında 22 nəfərdə müayinə, 6 nəfərdə əməliyyat, Azərbaycan Tibb Universitetinin uşaq cərrahı Allahverdi Musayev tərəfindən isə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində 5 nəfərdə plastik rekonstruktiv əməliyyatlar aparılıb.

Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin tərkibində olan Uşaq Ürək Cərrahiyyə Mərkəzinin invaziv uşaq kardioloqu Elnur İmanov tərəfindən mart ayında Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində 12 nəfərdə EXO kardioqrafiya müayinəsi cari ildə icra olunan aksiyalardan biridir.

Tibbi aksiya çərçivəsində Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə akademik Zərifə Əliyevanın doğum günü münasibətilə aztəminatlı ailələrdən olan tələbələr və şagirdlər oftalmoloq müayinəsindən keçirilib, ehtiyacı olan 23 tələbəyə və 70 şagirdə pulsuz eynəklər verilib.

İyun ayında Azərbaycan Tibb Universitetinin uşaq cərrahı Allahverdi Musayev tərəfindən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində 15 nəfərdə müayinə, 3 nəfərdə plastik rekonstruktiv əməliyyatlar aparılıb.

Avqust ayında endokrinoloq Rövşən Həsənov Naxçıvan Muxtar Respublika Xəstəxanasında 60 nəfərdə müayinələr və müalicələr aparıb.

Aksiyalar zamanı yenidən öz səhhətinə qovuşan xəstələr belə tədbirləri əhalinin sağlamlığına göstərilən dövlət qayğısı kimi dəyərləndirir və bildirirlər ki, ölkəmiz ikinci dəfə öz müstəqilliyini əldə etdikdən sonra respublikamızda səhiyyə ocaqlarının inkişafına, tibbi xidmətin yüksəldilməsinə xüsusi diqqət yetirilməsi hər kəsin ürəyincədir. Bu gün müalicə aldığımız səhiyyə müəssisələrində bir ailə komandası kimi çalışan, əhaliyə tibbi xidmət göstərən kollektivlərin öz işlərinə məsuliyyətlə yanaşması, həddsiz diqqət göstərilməsi, təmizlik, səliqə-sahman, ürəkaçan sanitar-gigiyenik vəziyyət, mehriban münasibət, nəvaziş dediklərimizə əyani sübutdur.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Mənəviyyatımın zirvəsidi Naxçıvan

Əsrlər öncəsi, qədim zamanda, Nuhun pənah yeri Nəqşi-cahanda İslam adlı bir din oldu bərqərar, ona könül verdi bütün insanlar. Ucaldı məscidim, minarələrim, tikildi məktəbim, mədrəsələrim, hər yerdən ucaldı azanın səsi, duyuldu Allahın "Oxu!" kəlməsi. Yarandı bu yerdə bir mədəniyyət, imandan doğulan bir əbədiyyət, doğuldu burada incəsənətlər, xəttatlıq, memarlıq, gözəl sənətlər. "Quran"la insanlar qurdu-yaratdı, İslam bu diyara işıq, nur saçdı, mənəvi dünyanın qapılarını xalqımız elmlə, ürfanla açdı. İllər ötüb getdi, keçdi əsrlər, torpağa kök saldı daş abidələr, bu qədim yurdumun hər qarışında, saldı min bir naxış yaradan əllər.

Ancaq elə zaman, dövran gəldi ki, uçuldu, dağıldı daş abidələr. Bolşevik düşüncə diktə etdi ki, gərək məhv edilə bu irs, sərvətlər. 70 il baxımsız qaldı tariximiz, təhrifə uğradı ulu keçmişim. İslamın minillik mədəniyyəti, xalqımın mənəvi varidövləti yalan düşüncənin qurbanı oldu. Yalan ideyayla, yalan xəyalla gerçək qarşısında sipər quruldu.

Vaxt gəldi bürüdü azadlıq odu ulu vətənimi, Azərbaycanı, o zaman qurtardı dahi rəhbərim böyük bir bəladan Nəqşi-cahanı. Təkrar azad oldu dini etiqad, 70 il ərzində yaranan təzad. Yenə həyat tapdı daş yadigarlar, ulu babalardan miras qalanlar, minillik inancın xatirələri, mənəvi dünyamın abidələri, yenə ucaldıldı, təkrar doğuldu, xalqımın mənəvi dayağı oldu. Xilas, nicat tapdı o Xanəgahım, Nəimi məzarlı söz qibləgahım, Əshabi-Kəhf gizlini çox agah oldu, minlərlə insana səcdəgah oldu. İman ocaqlarım, səcdəgahlarım, yenə dolub-daşdı insan selilə, yenidən açıldı xoş sabahlarım, quran və yaradan insan əlilə.

Naxçıvan mənəvi zirvəmdir mənim, hər kəsçün əlçatan, ünyetən deyil. Bu gün iftixarım, fəxrimdir mənim, Naxçıvan dünənki Naxçıvan deyil. Ölkəmin paytaxtı Bakı şəhəri, İslamın paytaxtı Naxçıvanımdır. O, mənim müqəddəs bir məbədgahım, döyünən ürəyim, axan qanımdır.

✍ **Səbuhi HÜSEYNOV**



*Naxçıvan şəhərində Came məscidi*



*Naxçıvan şəhərində İmamzadə*



*Əshabi-Kəhf ziyarətgahı*



*Şərur şəhərində məscid*



*Babək rayonunun Nehrəm kəndində məscid*



*Culfa rayonunun Əbrəqunus kəndində məscid*

## "DİN-Darıdağ" komandası futzal birinciliyinin qalibidir



***Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25-ci ildönümünə həsr olunmuş "Futzal kuboku" uğrunda muxtar respublika birinciliyinə yekun vurulub.***

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən birincilikdə 9 komanda olimpiya sistemi üzrə mübarizə aparıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi yarış 3 gün davam edib.

Birinciliyin bağlanış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Azad Cabbarov bildirib ki, muxtar respublikada diqqətdə saxlanılan sahələrdən biri də gənc idmançılar nəslinin formalaşdırılmasıdır. Naxçıvan beynəlxalq idman yarışlarına ev sahibliyi edir. Bütün bunlar idmançıların peşəkarlıq səviyyəsinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Yaradılan şərait gənclərin asudə vaxtının səmərəli təşkilinə və onların idman federasiyalarına cəlbinə səbəb olub.

Birinciliyin final görüşündə "DİN-Darıdağ" və "Şahbuz" komandaları üz-üzə gəliblər. Gərgin keçən görüşün ilk hissəsi heç-heçə (2:2) başa çatıb. İkinci hissədə daha yaxşı təsir bağışlayan "DİN-Darıdağ" komandası oyunu 8:3 hesablı qələbə ilə başa vuraraq birinciliyin baş mükafatını qazanıb.

Sonda finalçılara təşkilatçılar tərəfindən diplom və hədiyyələr, qalib komandaya isə kubok təqdim edilib.

## Paralimpiyaçılar arasında futzal yarışı başa çatıb

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində paralimpiyaçılar arasında keçirilən futzal üzrə muxtar respublika birinciliyinə yekun vurulub.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Paralimpiya Federasiyasının birgə təşkil etdiyi birincilik iki gün davam edib və 8 komanda mübarizə aparıb.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25 illiyinə həsr olunmuş birincilikdə finala "Sədərək" və "Şahbuz" futzalçıları vəsiqə qazanıblar. Həlledici qarşılaşmada 4:0 hesabı ilə qalib gələn sədərəklilər birinciliyin qalibi olublar. Muxtar respublika birinciliyində "Naxçıvan" komandası üçüncü olub.



Sonda qalib komandalar təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

***Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri arasında növbəti "Lira" musiqili-intellektual oyunu keçirilib.***

## "Lira" musiqili-intellektual oyunu

Oyun başlanmazdan əvvəl Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Leyla Əlimərdanova çıxış edərək bildirib ki, 2016-2017-ci tədris ili ərzində keçirilən oyunların nəticəsinə əsasən, I yer tutan komandalar 2017-ci ilin ortalarında keçiriləcək final oyununda iştirak edəcəklər. Bu oyunların keçirilməsində məqsəd şagirdlərin biliyinin artırılmasına, onların intellektual səviyyəsinin yüksəldilməsinə kömək göstərməkdir.

Sonra oyunda yarışacaq "Dəstgah" (Babək Rayon Cəhri Kənd Uşaq Musiqi Məktəbi), "Ovsarı" və "Köçəri" (Şərur Rayon Ələkli və Şəhriyar Kənd Uşaq Musiqi məktəbləri), "Nuh yurdu" (Kəngərli Rayon Qıvraq Qəsəbə Uşaq Musiqi Məktəbi), "Ballada" və "Ruhani" (Naxçıvan Şəhər 1 nömrəli və Qaraçuq Kənd Uşaq Musiqi məktəbləri), "Melodiya" (Ordubad Şəhər Uşaq Musiqi Məktəbi) komandaları iştirakçılara təqdim edilib.

Oyunun şərtlərinə görə, komandalar arasında seçim turunun keçirilməsi haqqında məlumat verilib. Bildirilib ki, burada ən çox bal toplayan 4 komanda oyunun əsas turunda iştirak edəcək. Seçim turu 2 mərhələdən ibarət olmaqla, I mərhələdə 4 komanda, II mərhələdə 3 komanda gücünü sınayacaq. Hər mərhələdə iştirakçılara 25 sual veriləcək və ən çox bal toplayan komandalar oyunun əsas turunda iştirak etmək hüququ qazanacaqlar.

Əsas tur hər biri 5 nəfərdən ibarət olan 4 komanda arasında keçiriləcək və 3 mərhələdən ibarət olacaq. I mərhələdə görkəmli bəstəkarların həyat və yaradıcılığı barədə, II mərhələdə musiqi əsərlərini dinləmə yolu ilə təyinetmə formatında, III mərhələdə isə ümumi musiqi dünyagörüşünə dair suallar veriləcək. Hər sualın düzgün cavabı 100 balla qiymətləndiriləcək.

Maraqlı və gərgin keçən musiqili-intellektual oyunda musiqi məktəblərinin şagirdləri bəstəkarlarla bağlı sualları cavablandırmaqda fəallıq göstəriblər. Onlar görkəmli Azərbaycan və dünya bəstəkarları Üzeyir Hacıbəyli, Qara Qarayev, Motsart və Bethovenin əsərlərini dinləmə yolu ilə təyin ediblər, musiqinin ümumi-nəzəri məsələləri ilə bağlı sualları cavablandırıblar.

Bütün suallar cavablandırıldıqdan sonra ən yüksək bal toplamış komandalar mükafatlandırılıblar. "Nuh yurdu" komandası I, "Ballada" komandası II, "Melodiya" komandası III dərəcəli diploma layiq görülüb.

Qeyd edək ki, "Nuh yurdu" komandası "Lira" musiqili-intellektual oyununun finalında iştirak etmək hüququ qazanıb.

**Əli RZAYEV**

### İtmişdir

Əsgərov Akif Ələsgər oğlunun adına olan evin 7493 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

İlyasov Ülvi Hafiz oğlunun adına verilmiş MN-0049374 seriya nömrəli zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Ağayev Rauf İbrahim oğlunun adına olan evin 06/726 qeydiyyat vərəqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 903